*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 13 aprel 2016-cı il | № 27 (2042) | Qiyməti 25 qəpik


## Ali Baş Komandan İlham ƏLİYEV:

# Ermənistanın silahlı birləşmələri işğal edilmiş torpaqlardan çıxmalıdır

***Aprelin 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib. İclasda 2016-cı ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr müzakirə edilsə də, dövlət başçısı giriş nitqi ilə çıxış edərkən aprelin ilk günlərində düşmənlə təmas xəttində baş vermiş hadisələrə geniş yer ayırıb.***

Öncə Ermənistanın silahlı təxribatının qarşısını alarkən qəhrəmancasına şəhid olmuş Azərbaycan hərbçilərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Ermənistanın Azərbaycana qarşı növbəti silahlı təxribat törətdiyini söyləyən Prezident İlham Əliyev xüsusi vurğuladı ki, təxribatın qarşısı alındı, düşmənə layiqli cavab verildi. "Azərbaycan öz torpaqlarını qoruya, öz hərbi mövqelərini daha da möhkəmləndirə bildi. Bu qanlı toqquşma bir daha onu göstərir ki, Ermənistan işğalçı siyasətini davam etdirir, sülh istəmir və çalışır ki, danışıqlar prosesi pozulsun. Bunu deməyə bizdə kifayət qədər əsas var, ilk növbədə, danışıqların 20 ildən çox müddət ərzində aparılması onu göstərir ki, Ermənistan sadəcə olaraq danışıqları sonsuz proses kimi görmək istəyir."



2014-cü ilin sonlarında Fransa Prezidentinin təşəbbüsü ilə Parisdə Ermənistan və Azərbaycan prezidentləri arasında keçirilmiş görüşə toxunan ölkəmizin rəhbəri bildirdi ki, o vaxt hər iki tərəf görüşü müsbət qiymətləndirmişdi. Ancaq Ermənistan rəhbərliyinin pozucu fəaliyyəti nəticəsində danışıqlarda müsbət irəliləyişin əldə edilməsi mümkün olmayıb: "Görüşdən sonra biz danışıqlarda daha da müsbət dinamikanı gözləyirdik. Ancaq o danışıqlardan iki həftə keçməmiş Ermənistan işğal edilmiş torpaqlarda - Ağdam rayonunun ərazisində genişmiqyaslı hərbi təlimlərə başlamışdır. Bu, sırf təxribat xarakterli bir addım idi. Azərbaycan Silahlı Qüvvələri bu təxribata bir neçə gün cavab vermirdi, ancaq ondan sonra Ermənistan silahlı qüvvələri bizim mövqelərimizə hərbi helikopterlərlə hücum çəkmişdir. Azərbaycan Ordusu məcbur olub helikopterin birini vurmuşdur. Bu da Ermənistana bir bəhanə kimi lazım idi ki, yenə də Azərbaycanı təcavüzdə günahlandırsın."

Dağlıq Qarabağ münaqişəsinin həllilə bağlı ATƏT-in Minsk Qrupu həmsədrlərinin göstərdiyi cəhdlərdən danışan dövlət başçısı çıxışında bildirdi: "Minsk Qrupunun xahişi ilə keçən ilin dekabrında Azərbaycan və Ermənistan prezidentləri görüşdülər, amma o görüşün heç bir nəticəsi olmamışdır. Vasitəçilər çalışırlar ki, məsələ öz həllini tapsın. Bilirsiniz ki, Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa rəhbərliyi səylər göstərirlər, bəyanatlar verirlər. O cümlədən status-kvo haqqında çox dəyərli bəyanatlar verilir ki, status-kvo qəbuledilməzdir və dəyişdirilməlidir. Ancaq Ermənistan buna məhəl qoymur.

Bilirəm ki, həmsədr dövlətlər bu il danışıqların davam etdirilməsi istiqamətində yeni təkliflər irəli sürmüşlər. Amerika Birləşmiş Ştatlarında olarkən Amerikanın siyasi rəhbərliyi ilə o cümlədən Dağlıq Qarabağ münaqişəsi geniş şəkildə müzakirə edilmişdir. Qeyd etmişlər ki, onlar Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirlər. Bütün həmsədr ölkələr - ABŞ, Rusiya, Fransa Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Dünyada Ermənistandan başqa elə bir ölkə yoxdur ki, bizim ərazi bütövlüyümüzü dəstəkləməsin. Görünür ki, danışıqlarda mümkün ola biləcək müsbət dinamika Ermənistanın bu təxribata getməsini şərtləndirdi. Bir daha qeyd etmək istəyirəm, Azərbaycan öz torpaqlarını müdafiə edir, bizim başqa dövlətin torpağında gözümüz yoxdur, öz torpağımızı da heç kimə verəsi deyilik. Heç vaxt imkan verməyəcəyik ki, Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın."

Dağlıq Qarabağ probleminin Azərbaycan üçün olduqca ağrılı və prioritet məsələ olduğu, Azərbaycan rəhbərliyinin həmişə sülhsevər mövqedən çıxış etdiyi və münaqişənin sülh yolu ilə beynəlxalq qanunvericiliyə müvafiq həllinə çalışdığı Minsk Qrupu həmsədrlərinə yaxşı bəllidir. Eyni zamanda Ermənistanın silahlı birləşmələri mütəmadi olaraq mövqelərimizi, xüsusilə təmas xəttinə yaxın yaşayış məntəqələrimizi, dinc sakinləri atəşə tuturlar. Aprelin ilk günlərində baş vermiş hadisələr bunu bir daha əyani göstərir.

Azərbaycan Prezidenti son hadisələrə toxunaraq iclasda bildirdi: "Bildiyiniz kimi, qanlı toqquşmalardan sonra beynəlxalq ictimaiyyət bu məsələ ilə bağlı narahatlığını ifadə etdi. Həmsədr ölkələrin rəhbərliyi sülh danışıqlarına sadiqlik göstərilməsi, məsələnin sülh yolu ilə həlli haqqında bəyanatlar verdilər və biz də bunu istəyirik. Biz məsələnin sülh yolu ilə, siyasi yollarla öz həllini tapmasını istədiyimizi dəfələrlə bəyan etmişik. İstəyimiz odur ki, məsələ həllini tapsın. Bu gün də biz bəyan edirik ki, danışıqlar prosesinə sadiqik. Ümid edirik ki, bu danışıqlar məsələnin həllinə gətirib çıxaracaq. Məsələnin həlli çox sadədir - erməni silahlı birləşmələri işğal edilmiş torpaqlardan çıxmalıdır, Azərbaycan vətəndaşları öz doğma torpaqlarına qayıtmalıdırlar, ondan sonra regionda sülh və təhlükəsizlik yarana bilər. O ki qaldı xalqların öz müqəddəratını təyin etməsi prinsipinə, bu prinsip ölkələrin ərazi bütövlüyünü pozmamalıdır və Helsinki Yekun Aktında məhz bu ifadələr öz əksini tapır. Bütün münaqişələr ölkələrin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır."

Dövlətimizin başçısı çıxışında ölkəmizin iqtisadi baxımdan inkişaf etdikcə, Silahlı Qüvvələrimizin potensialı və döyüş bacarığı artdıqca işğal edilmiş torpaqlarımızın azad edilməsinə daha da yaxınlaşdığına inamını ifadə etdi. "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim əsas vəzifəmizdir. Azərbaycan həm siyasi, həm iqtisadi və bütün başqa sahələrdə gücləndikcə, əlbəttə ki, bu münaqişənin həlli daha da yaxın olacaqdır. Biz inkişaf dinamikamızı daha da sürətləndirməliyik və Azərbaycanda dayanıqlı inkişaf davam etməlidir. Son illər ərzində iqtisadi və siyasi sahələrdə əldə edilən uğurlar onu göstərir ki, biz düzgün yoldayıq."

**"Azərbaycan Ordusu"**



Azərbaycan Ordusunun şəhid zabitləri dəfn edilib

2-ci səhifədə



Vətən keşikçiləri

3-cü səhifədə



"Şəhidlər ölməz, Vətən bölünməz!"

4-cü səhifədə



"Sağalıb döyüş növbəsinə qayıdacam"

6-cı səhifədə

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Ordusunun şəhid zabitləri dəfn edilib

***Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində baş vermiş son hərbi əməliyyatlarda "Mi-24" helikopterinin vurulması zamanı şəhid olan pilotlar - mayor Urfan Vəlizadə, mayor Təbriz Musazadə, baş leytenant Əbubəkir İsmayılov, eləcə də polkovnik-leytenant Murad Mirzəyev aprelin 11-də son mənzilə yola salınıblar.***



Qəhrəman zabitlərlə vida mərasimi Müdafiə Nazirliyinin Təlim və Tədris Mərkəzində keçirilib. Mərasimdə dövlət və hökumət rəsmiləri, o cümlədən Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov, baş prokurorun müavini - respublika hərbi prokuroru ədliyyə general-leytenantı Xanlar Vəliyev, Dövlət Sərhəd Xidmətinin rəisi - Sərhəd Qoşunlarının Komandanı general-polkovnik Elçin Quliyev, Milli Məclisin deputatları, şəhidlərin ailə üzvləri, hərbçilər, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidlərin yaxınlarına və valideynlərinə başsağlığı verib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov mərasimdə çıxış edərək deyib: "Bu gün burada danışmaq çətindir, amma biz həqiqəti deməliyik. Yüz illərdir erməni faşistləri bizə qarşı cinayətlər törədirlər. Bu cinayətin qarşısı alınmasaydı, yenə davam edəcəkdi. Şəhidlərimiz bütün dünyaya sübut etdi ki, Azərbaycan xalqı qəhrəman xalqdır."





Şəhidlərimizin qısasının düşməndən alınacağını, torpaqlarımızın tezliklə işğaldan azad olunacağını bildirən nazir deyib: "Bu gün Ali Baş Komandanın rəhbərliyi ilə Silahlı Qüvvələrdə böyük ruh yüksəkliyi var. Şəhidlərin qisası alınacaq və biz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Heç kəs buna şübhə etməsin."

Müdafiə Nazirliyinin əməkdaşı polkovnik Abdulla Qurbani şəhidlərin tərcümeyi-halı və keçdikləri şərəfli döyüş yolu haqqında məlumat verib. O, Ermənistan silahlı qüvvələrinin aprelin 1-dən başlayaraq mövqelərimizi intensiv atəşə tutduğunu, yaşayış məntəqələrinə mərmilər yağdırdığını bildirib. Qeyd edib ki, Azərbaycan Ordusu Ermənistan hərbi birləşmələrinin təxribatlarının qarşısını layiqincə alıb, düşmənin xeyli canlı qüvvəsini, silah və texnikasını məhv edib. Bu döyüşlərdə biz də şəhid verdik. Neçə illərdir düşmən tapdağında olan ərazilərimizin bir hissəsi azad edilib, çox əlverişli yüksəkliklər Azərbaycan əsgərinin nəzarəti altına keçib. İndi həmin ərazilərdə Azərbaycan bayrağı dalğalanır. Azərbaycan əsgəri öz qəhrəmanlığını bir daha sübut etdi. Şəhidlərimizin valideynləri də "Vətən sağ olsun!" deyirlər. Bu gün Azərbaycan Ordusu Vətən torpaqlarının keşiyində ayıq-sayıq dayanır.



Şəhid anaları adından çıxış edən Rəna İsmayılova övladlarımızın Vətən yolunda, Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmasından qürur duyduğunu deyib. O, göstərilən diqqət və qayğıya görə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib.

Sonra şəhidlərin cənazələri son mənzilə yola salınması üçün ikinci Fəxri xiyabana gətirilib.

Şəhidləri son mənzilə yola salmaq üçün orada böyük qələbəlik var idi.

İgid qəhrəmanlarımız yaylım atəşi altında torpağa tapşırılıb.

Şəhidlərin ruhuna dualar oxunub, Azərbaycan Respublikasının Dövlət himni səslənib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov şəhidlərin tabutu üzərinə örtülən bayraqları əbədi xatirə olaraq onların ailə üzvlərinə təqdim edib.

Dəfn zamanı "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarı səsləndirilib. Şəhidlərin məzarı üzərinə əkliллər və gül dəstələri düzülüb.

**AZƏRTAC**



# Vətən keşikçiləri

İctimai nəqliyyatda rastlaşdığım bir hadisə heç yadımdan çıxmır. 5-6 yaşlarında bir oğlan uşağı anasının yanında ipə-sapa yatmırdı. Yanımda əyləşən ağsaqqal uşağı dilə tutmağa başladı: "Balaca, de görüm böyüyəndə nəçi olacaqsan?" Bayaqdan anasına dinclik verməyən oğlanın "Baba, mən böyüyəndə əsgər olacam" cavabı qəlbimdə sonsuz qürur doğurdu. Düşündüm ki, bu yaşda övladlarımız bu cür düşünürlərsə, onda bu millətin, xalqın vətənpərvərliyinə, ucalığına söz ola bilməz. Əlbəttə, o yaşda vətənpərvərliyin nə demək olduğunu, Vətənin haradan başlandığını dərk edə biləcək düşüncə tərzinə malik olmayan balacanın birdən-birə belə cavabı bu gün Azərbaycan ailəsində böyüyən nəslin, doğrudan da, əsl vətənpərvərlik ruhunda tərbiyə edilməsinə əyani misaldır.

İllər ötəcək və həmin oğlan uşağı da yaşa dolduqca Vətənə sevgi adlı ülvi hissləri dərindən başa düşəcək. Əsgərlikdən qayıdan gənclərə həmişə həsədlə baxacaq, "Onlar Vətənimin keşikçiləridir", düşünəcək. Bir gün özü də əsgər gedəcək, and içərək hərbi xidmətinə başlayacaq. Gecənin bir aləmində əlində silah döyüş növbətçiliyinə çıxarkən bütün varlığıyla hiss edəcək ki, o da vətənpərvərdir, Vətəni üçün doğulub.

Bəzilərinə görə, Vətən sevgisi şairlərin, ədiblərin, rəssamların pafosla işlətdiyi şablon bir ifadədir. Amma bu belə deyil. Məhz aprel döyüşlərində misilsiz rəşadətlərə imza atan Azərbaycan əsgəri torpaqlarımız uğrunda əsl fədakarlığıyla sübut etdi ki, Vətən sevgisi ürəklərdə boy atan ülvi bir hissdir. "Ən böyük arzum Qarabağa getməkdir", "İnşallah, torpaqlarımız işğaldan qurtulsun" deyən söz-sənət fədailəri, buyurun, zaman yetişdi. Azərbaycan əsgərini - dövrümüzün qəhrəmanını vəsf edin, onun şəninə bir-birindən gözəl əsərlər yaradın.

Mərkəzi Hərbi Hospitalda yaralı döyüşçülərimizi ziyarət edən Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev əsgərdən "Özünü necə hiss edirsən?" soruşanda, gənc döyüşçü belə cavab vermişdi: "Əla hiss edirəm. İnşallah, ayağa qalxıb Vətənimizin torpaqlarını geri qaytarmaq üçün döyüşəcəm. Bizim qardaşlarımız orada yolumuzu, köməyimizi gözləyirlər". Dövlətimizin başçısı isə qarşılığında "Böyük qəhrəmanlıq göstərmisiniz. Sizin apardığınız hərbi əməliyyatlar gələcəkdə kitablarda öz əksini tapacaq" bildirmişdi. Doğrudan da, aprel savaşında Azərbaycan Ordusunun şəxsi heyəti ən yüksək mənəvi dəyərlərimizə, öz xalqına və dövlətinə sədaqətini, Vətən yolunda son damla qanına kimi mübarizə aparmaq əzmini dünyaya sübut etdi. Düşmənə anlatdı ki, bizim mübarizəmiz haqq, ədalət savaşıdır və buna görə də qələbə mütləq bizimlədir.

Qısamüddətli müharibədə itkilər versək də, üzülmədik, təki Vətənimizin başı sağ olsun, dedik. Öz doğma ordusuna dəstəyini nümayiş etdirən xalq şəhid övladlarını son mənzilə böyük izdihamla yola saldı. Nə qədər haqlı deyiblər: "İgid eldən gedər". Minlərlə Azərbaycan gənci bu izdihama qoşularaq ərənlərimizin yolunu davam etdirəcəyinə and içdi. Nə qədər adam əsgərlərimizə dəstək olmaq üçün cəbhə bölgələrinə yollandı, silahlanıb döyüşə atılmaq istəyini israrla təkid etdi. Amma ordu rəhbərliyi bəyan etdi ki, Silahlı Qüvvələrimizin şəxsi heyəti düşmənlə mübarizəyə yetərincə qadirdir və əlavə heç bir köməyə ehtiyac yoxdur.

Məlum aprel savaşında qalibiyyət qazanan, zirvələrə üçrəngli bayrağımızı sancan və lazım gələrsə, torpaq uğrunda şəhid olmaqdan çəkinməyən mətin oğullarımız tariximizin yeni qəhrəmanlıq səhifəsini yaratdılar. Vətənimiz, xalqımız həmin günlərdə bir boy da dikəldi, bəşəri duyğularla yaşayan mərd övladlarının sonsuz Vətən sevgisindən fəxarət duydu. Şəhidlərimiz, ərənlərimiz Azərbaycanı bir yumruq kimi birləşdirməyi bacardılar. Bu böyük birliyi, vəhdəti isə bundan sonra heç bir qüvvə sarsıda bilməz!

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

*Adətlərinə sadiq qalan mənfur ermənilər aprelin əvvəlində növbəti silahlı təxribata əl atdılar. Azərbaycan Ordusu düşmənə kəsərli cavab verməklə xalqımızın böyük qələbəyə inamını daha da artırdı. Bütün atəşkəs dövründə bu qədər itkiyə məruz qalmayan Ermənistan yas içindədir. Ölkəmizdə isə bayram əhval-ruhiyyəsi, qələbə havası duyulur. Bəli, bu müharibədir. Müharibə isə qansız-qadasız ötüşmür. Bu savaşda biz haqlıyıq. İllərdir uğrunda döyüşlər gedən, qanlar tökülən, şəhidlər verilən Qarabağımızın tarixi Azərbaycan torpaqları olduğunu bütün dünya bilsə də, erməni təcavüzkarları işğal etdikləri ərazilərimizi tərk etmək istəmirlər. Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin "...Bizim qəhrəman döyüşçülərimiz nəinki təxribatın qarşısını ala bildilər, eyni zamanda daha əlverişli mövqelərə malik oldular. Bu gün təmas xəttində Azərbaycanın üstünlüyü daha da möhkəmləndi. Aparılan hərbi əməliyyat nəticəsində, - onu da qeyd etmək istəyirəm ki, bu əməliyyat təxribata cavab olaraq aparılmışdır, - biz böyük hərbi qələbəni qazandıq. Bu münasibətlə ordumuzu, bütün Azərbaycan xalqını təbrik etmək istəyirəm" fikirləri Ermənistan rəhbərliyinə, ermənilərin bütün dünyadakı havadarlarına güclü mesaj oldu.*



# Ordumuz böyük qələbə ərəfəsindədir

Bəli, Azərbaycan əsgəri Ali Baş Komandanının əmri ilə ölkəmizin ərazi bütövlüyünün təmin olunması, işğal edilmiş torpaqlarımızın azad edilməsi uğrunda hər an döyüşə hazır olduğunu dünyaya göstərdi. Ermənistan ordusunun mifini yenilməz Azərbaycan əsgəri darmadağın etdi. Vətənin keşiyində düşmənlə üzbəüz mövqedə hər zaman ayıq-sayıq dayanan oğullarımız hərbi anda sadiq qalaraq, adlarını ordumuzun şərəf tarixinə qızıl hərflərlə yazdılar. Döyüşdən zəfərlə çıxmış əsgər və zabitlərimizin təəssüratlarını qələmə almaq nə qədər qürurvericidir.

Həmsöhbətim taqım komandiri baş leytenant Həsrət Almasov əsgərlərimizin ruh yüksəkliyindən ürəkdolusu danışır.

- Düşmən axşam saatlarından başlayaraq mövqelərimizi ağır atıcı silahlardan, iriçaplı pulemyotlardan atəşə tutmağa başladı. Hər zaman ayıq-sayıq əsgərlərimiz döyüş növbəsində idilər. Onlar qəfil hücumun qarşısını almağa elə səfərbər olunmuşdular ki, həqiqətdə mən əsgərlərimizin əzminə heyran qaldım. Onlar eyni vaxtda həm döyüşür, həm də yaralı yoldaşlarına yardım göstərirdilər. Əsgərlərimiz bu döyüşdən üzüağ, alnıaçıq çıxdılar. Düşmənə qarşı müqavimətdə böyük fədakarlıqlar göstərdilər. Sıralarımızda igid oğullarımızı da itirdik, şəhid verdik. Torpaq şəhid qanı ilə Vətən olur. Canından, qanından keçməyə hər an hazır olan Samir Qaçayev, Orxan Əliyev, Rəvan Nurayev, Sarvan Mehralıyev kimi Vətən oğullarının davamçıları yüzlərlədir, minlərlədir. Allah şəhidlərimizə rəhmət eləsin. Qoy onlar rahat uyusunlar. Onların qisasını düşməndən aldıq və bundan sonra da alacağıq.

Söhbətimi döyüşçü əsgərimizlə davam etdirirəm. Manqa komandiri Zülfiqar Həsənzadənin ata-baba yurdu Cəbrayıl rayonu da erməni cəlladları tərəfindən işğal edilib. Öyrənirəm ki, atası, əmiləri, dayıları ərazi özünümüdafiə batalyonlarında Cəbrayıl, Füzuli və Qubadlı uğrunda gedən döyüşlərdə iştirak ediblər. Müharibə veteranlarıdır. Ana babası isə Böyük Vətən müharibəsi cəbhələrində mərdliklə döyüşüb. Zülfiqar onlardan döyüşkənlik, qəhrəmanlıq məktəbi keçib. Doğulduğu yerlər haqqında valideynlərindən eşitdiyini bildirən Z.Həsənzadə deyir ki, düşmənə nifrəti sonsuzdur. "Torpaqlarımızı işğal edən ermənilərin sonuncu nəfərini buradan qovmayınca, əlimdən silahı yerə qoyan deyiləm. Şəhid olan döyüşçü yoldaşlarımın qisasını aldım, yenə də alacam."

Əsgər Sərdar Alasıyev Zaqatala rayonundan hərbi xidmətə çağırıldığını deyir: "Erməni əsgərləri döyüş postundan silahlarını atıb qaçırdılar. Onlar qorxaqlıqlarını, iç üzlərini bir daha göstərdilər."

Sultan Ayvazov əslən Tovuzun Əlibəyli kəndindəndir. Kəndlərinin daim erməni silahlılarının basqınına məruz qaldığını deyən Sultan döyüş təəssüratlarını bizimlə bölüşür. "Düşmən minaatanlardan mənim dayandığım istiqamətə atəş açırdı. Həmin atəş nöqtəsini darmadağın etdik. Ermənilər əlavə qüvvələr çağırmağa məcbur olsalar da, ordumuz tərəfindən məhv edildilər."

Döyüşçülərdən Məmmədyar Atayev, Hüseyn Ramazanov, Mirabbas Murtuzayev, Cahandar Əjdərov, Təbib İbadov və digərləri təmizlədikləri silahlarını göstərərək deyirlər ki, bu silahlarla düşmənin neçə canlı qüvvəsini məhv ediblər. "Onlar işğal etdikləri torpaqlarımızdan çıxıb getsinlər. Biz sülh istəyirik, onlar isə hiyləgərliklə məşğul olurlar. Erməniləri torpaqlarımızdan qovmayanadək silahı yerə qoymayacağıq."

Əsgər Əlisahib Hüseynzadə Lənkəran rayonunun Kosalar kəndindəndir. Xidmətə gəldiyi gündən əsgər yoldaşları ilə möhkəm dostluq, qardaşlıq münasibətlərinin olduğunu deyir. Əlisahib döyüşçü yoldaşı Rəşad Xəlilli ilə birlikdə yaralı silahdaşları Nail Nağızadəni ərazidən çıxartdıqdan sonra döyüşlərini davam etdirdiklərini söyləyir. "Yaxşı ki, biz o anda Naili ərazidən kənara çıxarda bildik. Yoxsa daha çox qan itirə bilərdi və bunu heç zaman özümüzə bağışlamazdıq."

Əsgər Azər Cəfərzadə isə atıcı silahdan neçə düşmən qüvvəsini məhv etdiyindən, əsgəri dostluqda, yoldaşlıqda necə möhkəm olmalarından, yaralı Fazil Abdıyevi ərazidən çıxartdığından, şəhid Samir Qaçayevin ən xoş sözlərə layiq olduğundan, əsgərlərimizin heç birinin erməni kimi silahı atıb qaçmadığından danışır.

Əsgər Mirəjdər Abdullayev Şəhidlər xiyabanının yaxınlığında yaşadıqlarını, demək olar ki, hər gün oranı ziyarət etdiyini bildirir. "Azərbaycan Ordusu düşmənə ağır zərbə vurdu. Bu zərbədən sonra onlar çətin özlərinə gələ bilərlər. Biz axıra kimi döyüşdük, onlar isə qorxub qaçdılar."

Manqa komandiri Ülvi Qüdrətzadə döyüşçü dostlarından Vasif Zeynalov, İsmayıl Nəbiyev, Vüqar Sadıqzadənin və başqalarının əsgəri şücaətlərindən qürurla danışdı.

Tarix boyu həmişə şərəfli ölümlə qürur duymuşuq, ömrümüz boyu belə şərəfli ölümlərə can atmışıq. Ölümün gözünə dik baxa bildiyimiz üçün, bu Vətən, bu torpaq, bu yurd nə qədər faciələrlə üzləşsə də, heç zaman yaşamaq, var olmaq haqqını itirməyib. Azərbaycan əsgəri bir daha Vətənimizin bütövlüyü uğrunda müqəddəs müharibəyə hazır olduğunu sübut etdi.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# "Şəhidlər ölməz, Vətən bölünməz!"



Düşmən təxribatının qarşısını alarkən Azərbaycan Ordusunun şəhid olan zabiti, 1992-ci il təvəllüdlü Teymur Sabir oğlu Qasımov aprelin 9-da doğulduğu Mingəçevir şəhərində dəfn edilib.

Teymur Qasımovun nəşi Mingəçevir şəhərindəki Şəhidlər xiyabanında torpağa tapşırılıb, şəhidin ruhuna dualar oxunub.

Şəhidin tabutuna bükülmüş Azərbaycanın üçrəngli bayrağı atasına təqdim edilib. Sabir Qasımov şəhid olan oğlu ilə fəxr etdiyini bildirib. O, Vətən uğrunda canlarından keçən bütün şəhidlərimizə Allahdan rəhmət diləyib. Şəhid qardaşı ilə qürur duyan Nuran Qasımov isə hərbçi olduğunu və düşmənlərdən qardaşının qisasını alacağını deyib.

Qeyd edək ki, Azərbaycan Ordusunun hərbi qulluqçusu gizir Teymur Qasımov 2012-ci ildə hərbi xidmətə yola salınıb və sonradan hərbçi kimi fəaliyyətini davam etdirib. O, cəbhənin Tərtər-Ağdərə istiqamətində Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində döyüş tapşırığını yerinə yetirən zaman düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

* * *

Ermənistan silahlı qüvvələrinin təxribatları nəticəsində cəbhədə gedən döyüşlərdə şəhid olan Azərbaycan Ordusunun 22 yaşlı hərbi qulluqçusu Elvin Azadxan oğlu Mirzəyev doğulub boya-başa çatdığı Xaçmaz şəhərində torpağa tapşırılıb.

Elvin Mirzəyev Tərtər ətrafında gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.



Mərasimə qatılanlar Elvin Mirzəyevin torpaqlarımızın azadlığı uğrunda son damla qanına qədər vuruşduğunu, Vətən uğrunda canından keçdiyini bildiriblər.

Şəhidin atası Azadxan Mirzəyev torpaqlarımızın azadlığı uğrunda canından keçən oğlu ilə fəxr etdiyini, onun qalib əsgər kimi şəhid olduğunu söyləyib. Şəhid atası övladının qisasının döyüş yoldaşları tərəfindən artıqlaması ilə alındığını və bundan sonra da alınacağına əminliyini ifadə edib.

* * *

Aprelin 9-da qusarlılar da Vətən uğrunda qəhrəmancasına şəhid olan 20 yaşlı əsgər Əmiraslan Xəlil oğlu Xeyirbəyovu son mənzilə yola salıblar.

Əmiraslan Xeyirbəyov 2015-ci ilin yanvarında hərbi xidmətə yollanmışdı. O, cəbhə bölgəsində Seysulan kəndi istiqamətində gedən ağır döyüşlərdə böyük şücaət göstərərək, qəhrəmanlıqla şəhid olub.

Vətən uğrunda qəhrəmancasına şəhid olan Əmiraslan Xeyirbəyov Qusar rayonunun Cağarqışlaq kəndində torpağa tapşırılıb.

* * *

Vətən uğrunda qəhrəmancasına şəhid olan gizir Babək Vəfadar oğlu Abidov isə doğulub boya-başa çatdığı Şabran rayonunun Zeyvə kəndində dəfn olunub.

24 yaşlı Babək Abidov Tərtər cəbhəsində gedən döyüşlərdə şəhid olub.

Şəhidin atası Vəfadar Abidov övladının Vətən uğrunda şəhid olmasından qürur duyduğunu dilə gətirib. Yaxınları Babəki vətənsevər, mərd, cəsur bir gənc kimi tanıdıqlarını bildiriblər.

Şəhid gizir yaylım atəşi altında Zeyvə kənd qəbiristanlığında torpağa tapşırılıb. Tabut üzərindəki üçrəngli Azərbaycan bayrağı şəhidin atasına təqdim edilib.

* * *

Cəbhənin Tərtər rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin hücumunun qarşısını alarkən şəhid olan Beyləqan rayonu Bolsulu kənd sakini, Azərbaycan Ordusunun hərbi qulluqçusu Şahin Yaşar oğlu Cavadzadə son mənzilə yola salınıb.

Şəhidin atası Yaşar Cavadov oğlu ilə fəxr etdiyini bildirib.

İzdihamın müşayiəti ilə şəhidin cənazəsi Həzrəti Cərciz Peyğəmbər ziyarətgahında əsgəri ənənələrə uyğun olaraq yaylım atəşi altında torpağa tapşırılıb, məzarı üstünə əklil və tər qərənfillər qoyulub. Şəhidin tabutu üzərinə çəkilmiş üçrəngli dövlət bayrağı əbədi xatirə olaraq ailəsinə təqdim edilib.

* * *

Vətənin azadlığı və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olan gizir, 1995-ci il təvəllüdlü Hüseynov Bəxtiyar Rəfael oğlu aprelin 9-da yaşadığı Goranboy rayonunun Qızılhacılı kəndində torpağa tapşırılıb.

Dəfn mərasimində iştirak edən minlərlə gənc tərəfindən "Şəhidlər ölməz, Vətən bölünməz!", "Torpaq uğrunda ölən varsa, Vətəndir!" şüarları səsləndirilib, şəhid əsgər yaylım atəşi altında son mənzilə yola salınıb.

* * *

Cəbhə bölgəsində gedən döyüşlərdə şəhid olmuş Azərbaycan Ordusunun əsgəri, 1996-cı il təvəllüdlü Firdovsi Əliş oğlu Bağırzadənin nəşi aprelin 9-da doğulduğu Masallı rayonunun Güllütəpə kəndinə gətirilib.

Şəhid əsgər Firdovsi Bağırzadə yaylım atəşi altında son mənzilə yola salınıb. Tabuta bükülmüş Azərbaycan Respublikasının üçrəngli bayrağı şəhidin dayısı Ağamir İbrahimova təqdim edilib.

* * *

Qoşunların təmas xəttində düşmən təxribatı nəticəsində şəhid olmuş Azərbaycan Ordusunun əsgəri Röyal İmran oğlu Nəsirov Cəlilabad rayonunun Məlikqasımlı kəndində dəfn edilib.

Vida mərasimində Cəlilabad rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov çıxış edərək, şəhidin ailəsinə dərin hüznlə başsağlığı verib, Vətən uğrunda canından keçən qəhrəman əsgərlərimizin xatirəsinin hər zaman xalqımızın qəlbində yaşayacağını bildirib.

Şəhid Röyal Nəsirovun nəşi yaylım atəşi altında torpağa tapşırılıb. Azərbaycan Respublikasının üçrəngli bayrağı şəhidin atasına təqdim edilib.

* * *

Cəbhənin Tərtər istiqamətində erməni hərbi birləşmələrinin təxribatının qarşısını alarkən şəhid olan "N" hərbi hissəsinin əsgəri, 1993-cü il təvəllüdlü Əbdülməcid Nadirşah oğlu Axundov aprelin 9-da Sumqayıt şəhərində son mənzilə yola salınıb.

Sumqayıtlılar qəhrəman oğlunu böyük qürur və iftixar hissi ilə dəfn etmək üçün küçələrə axışıblar. Şəhidin yaşadığı 16-cı məhəllədəki binanın qarşısında böyük izdiham yaşanıb. Şəhidin evindən Sumqayıtdakı Şəhidlər xiyabanına kimi irəliləyən izdiham "Şəhidlər ölməz, Vətən bölünməz!", "Yaşasın Qarabağ, yaşasın Azərbaycan!", "Qarabağ bizimdir, bizim olacaq!", "Azərbaycan əsgəri, keç səngərdən irəli!" şüarları səsləndiriblər.

Yaylım atəşindən sonra Azərbaycanın Dövlət himni səsləndirilib və şəhidin nəşi torpağa tapşırılıb. Tabut üzərindəki üçrəngli Azərbaycan bayrağı şəhidin atasına təqdim edilib.

Şəhidin anası, şəhər Mədəniyyət və Turizm İdarəsinin məsul işçisi Ceyran Axundova övladının Vətən uğrunda şəhid olmasından qürur duyduğunu söyləyərək deyib: "Oğlum üç ay əvvəl evə gəlmişdi. Gedəndə



dedi ki, mən şəhid olacağam, siz də mənimlə fəxr edəcəksiniz. O, həmişə şəhidlik zirvəsinə çatmaq arzusunda idi. Əcəl də onu ən gözəl ölümlə aldı."

* * *

Torpaqlarımız uğrunda erməni qəsbkarlarına qarşı döyüşlərdə şəhid olan əsgərimiz Vüsal İlham oğlu Alıyev Şəmkir rayonunun Kür qəsəbəsində dəfn olunub.

Mərasimdə çıxış edən şəhidin əsgər yoldaşları onun keçdiyi şərəfli döyüş yolundan danışıblar.

* * *

Cəbhə xəttində düşmənin törətdiyi təxribat nəticəsində həlak olan gizir Toğrul Habil oğlu Fərəczadə Ağsuda dəfn edilib.

Aprelin 9-da şəhidin doğulub boya-başa çatdığı Bico kəndində izdihamlı dəfn mərasimi keçirilib.

Şəhid gizir yaylım atəşi altında torpağa tapşırılıb. Tabuta bükülmüş Azərbaycanın üçrəngli bayrağı şəhidin atası Habil Cəbiyevə verilib. Bayrağı öpərək qəbul edən şəhid atası deyib: "Oğlum Toğrul Vətən uğrunda həlak olub, şəhidlik zirvəsinə yüksəlib. Təki Vətən sağ olsun. Bircə arzum var. O da Qarabağımızın əzəli və əbədi düşmənlərimizdən azad edilməsidir."

* * *

Azərbaycan Ordusunun şəhid əsgəri, 1997-ci il təvəllüdlü Nazim Nadir oğlu Zəkarayev aprelin 9-da doğulduğu Şamaxı şəhərində Şəhidlər xiyabanında dəfn edilib.

Dəfn mərasimində Şamaxıda keçirilən "Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər)" adlı III Beynəlxalq elmi konfransın iştirakçısı olan Azərbaycan, Albaniya, Almaniya, Türkiyə, Rusiya, Özbəkistan, Gürcüstan və Polşadan olan tarixçi alimlər, eləcə də Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri şəhidin qulluq etdiyi hərbi hissənin əsgər və zabitləri də iştirak edib.

Dəfn mərasimində "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarı səsləndirilib, şəhid əsgər yaylım atəşi altında son mənzilə yola salınıb. Şəhidin tabutuna bükülən Azərbaycanın üçrəngli bayrağı atasına təqdim edilib.

Qeyd edək ki, şəhid Nazim Zəkarayev 2015-ci ilin oktyabrında Şamaxı rayonundan hərbi xidmətə yola salınıb. O, cəbhənin Tərtər-Ağdərə istiqamətində, Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində döyüş tapşırığını yerinə yetirən zaman düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

* * *

Qoşunların təmas xəttində erməni ordusunun törətdiyi təxribat nəticəsində daha bir şamaxılı Elşən Səlim oğlu Səmədov dəfn olunub. Şəhid əsgər aprelin 9-da doğulub boya-başa çatdığı Göylər kəndində torpağa tapşırılıb.

Çıxış edənlər şəhidlərimizin qanının yerdə qalmayacağına, erməni təcavüzkarlarının layiqincə cəzalandırılacağına əminliklərini ifadə ediblər.

**(Ardı 5-ci səhifədə)**

# “Şəhidlər ölməz, Vətən bölünməz!”

(Əvvəli 4-cü səhifədə)

Aprelin 9-da Azərbaycan Ordusunun şəhid əsgəri, 1993-cü il təvəllüdlü Mikayıl Yaqub oğlu Vahabzadə doğulub boya-başa çatdığı İsmayıllı rayonunun Maçaxı kəndində torpağa tapşırılıb.

Dəfn mərasimində "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarı səsləndirilib, şəhid əsgər yaylım atəşi altında son mənzilə yola salınıb.

Ailənin böyük oğlu olan Mikayıl Vahabzadə Sumqayıt Dövlət Universitetini bitirdikdən sonra 2015-ci ilin iyulunda İsmayıllı rayonundan hərbi xidmətə yola salınıb. O, cəbhənin Tərtər-Ağdərə istiqamətində Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində döyüş tapşırığını yerinə yetirən zaman düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

* * *

Tərtər rayonunun Talış kəndi istiqamətində gedən döyüşlərdə şəhid olan Naxçıvan şəhər sakini leytenant Qabil Əbdüləli oğlu Orucəliyevin nəşi aprelin 11-də Naxçıvan şəhərində dəfn edilib.

Şəhidlə vida mərasiminə şəhər sakinləri, hərbçilər və ictimaiyyət nümayəndələri qatılıblar. Bundan başqa, muxtar respublikanın rayonlarından və kəndlərindən də yüzlərlə insan mərasimdə iştirak edib.





* * *

Azərbaycan Ordusunun şəhid olan hərbi qulluqçusu, 1993-cü il təvəllüdlü Adil Kamran oğlu Adilzadə aprelin 11-də doğulduğu Mingəçevir şəhərində son mənzilə yola salınıb.

Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olan kiçik çavuş Adil Adilzadənin nəşi Mingəçevirdəki Şəhidlər xiyabanında torpağa tapşırılıb, ruhuna dualar oxunub.

"Qarabağ bizimdir, bizim olacaq!", "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarları səsləndirilib. Şəhid yaylım atəşi altında son mənzilə yola salınıb. Şəhidin tabutuna bükülmüş Azərbaycanın üçrəngli bayrağı atasına təqdim edilib.

Dəfn mərasimində Adil Adilzadənin qulluq etdiyi hərbi hissənin bölük komandiri məlumat verib ki, o, döyüş tapşırığını yerinə yetirən zaman 17 erməni hərbçisini məhv edərək qəhrəmancasına şəhid olub.

Şəhidin atası Kamran Adilzadə oğlu ilə fəxr etdiyini deyib. O, Vətən uğrunda canlarından keçən bütün şəhidlərimizə Allahdan rəhmət diləyib. Şəhid atası əsgərlərimizlə qürur duyduğunu və düşmənlərdən oğlunun qisasını alacaqlarına əmin olduğunu söyləyib.

* * *

Erməni təxribatının qarşısını alarkən şücaət göstərərək şəhidlik zirvəsinə ucalanlar sırasında Tovuz rayonunun Bayramlı kəndindən 22 yaşlı gizir Mirsalam Təvəkkül oğlu Cəfərov da olub. Şəhidin dəfni Tovuz rayonunun Bayramlı kəndində böyük izdihamla keçib.

Şəhidin atası Təvəkkül Cəfərov övladının Vətən uğrunda şəhid olmasından qürur duyduğunu dilə gətirib. Döyüş yoldaşları Mirsalamı hər zaman vətənsevər, mərd, cəsur bir gənc kimi tanıdıqlarını bildiriblər.

Çıxış edən hərbçilər də şəhidlik zirvəsinə ucalan Mirsalamın döyüş tapşırıqlarını layiqincə yerinə yetirdiyini diqqətə çatdırıblar.

Şəhid əsgər yaylım atəşi altında Bayramlı kənd qəbiristanlığında dəfn edilib. Tabut üzərindəki üçrəngli Azərbaycan bayrağı şəhidin atasına təqdim edilib.

* * *

Kürdəmir rayonunda daha bir hərbçimizin dəfn mərasimi keçirilib. Şəhidlik zirvəsinə yüksələn bu gənc 1992-ci ildə rayonun Sığırlı kəndində anadan olan gizir Tural Gürşad oğlu Qurbanovdur.

Aprelin 11-də şəhid Tural Qurbanovun doğulub boya-başa çatdığı Sığırlı kəndində izdihamlı dəfn mərasimi keçirilib.

Şəhidin atası Gürşad Qurbanov çıxış edərək övladının torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə şəhid olmasından qürur duyduğunu bildirib.

Şəhidin tabutu üzərindəki üçrəngli Azərbaycan bayrağı əbədi saxlanılmaq üçün atası Gürşad kişiyə təqdim edilib.

Dəfn mərasimində "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarı səsləndirilib, şəhid əsgər yaylım atəşi altında son mənzilə yola salınıb.

* * *

Torpaqlarımızın qorunmasında mərdliklə döyüşərək şəhid olan igid oğullarımızdan biri də Pəncəli Nurməmməd oğlu Teymurovdur.

Talış kəndi uğrunda gedən döyüşlərdə şəhid olmuş gizir Pəncəli Teymurov aprelin 11-də doğulduğu Astara rayonunun Əzərüd kəndində torpağa tapşırılıb.

Mərasimdə çıxış edənlər Vətən torpağı uğrunda canından keçən şəhidin igidliyindən, yurd sevgisindən danışıblar. Bildirilib ki, 1981-ci il martın 24-də Astara rayonunun Əzərüd kəndində anadan olan Pəncəli Teymurov 1999-cu ildə həqiqi hərbi xidmətə çağırılıb. Hərbi xidməti başa vurduqdan sonra könüllü olaraq xidmətini davam etdirib. Yüksək bacarıq və peşəkarlığı, nümunəvi xidməti nəzərə alınaraq o, 2015-ci il iyunun 24-də Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltif olunub.

Dəfn mərasimində Pəncəli Teymurovun 2013-cü ildə öz toy mərasimində dediyi sözlər diqqətə çatdırılıb: "Son damla qanımı da Vətənim, torpağım uğrunda verməyə hər an hazıram. Ən böyük arzum şəhid kimi Azərbaycanın üçrəngli bayrağına bürünməkdir..."

Şəhid gizir yaylım atəşi altında torpağa tapşırılıb. Onun tabutuna bükülmüş Azərbaycan Respublikasının üçrəngli bayrağı atası Nurməmməd Teymurova təqdim edilib.

* * *

Cəbhənin Goranboy rayonu istiqamətində gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olan Azərbaycan Silahlı Qüvvələrinin zabiti Vaqif Dilqəm oğlu Bayramov böyüyüb boya-başa çatdığı Naftalan şəhərində izdihamla son mənzilə yola salınıb.

Şəhidin nəşi yaylım atəşi altında şəhər qəbiristanlığında torpağa tapşırılıb, məzarı üstünə əklil və tər qərənfillər qoyulub. Tabut üzərinə çəkilmiş üçrəngli Azərbaycan bayrağı atasına təqdim edilib.

* * *

Ermənistan silahlı qüvvələrinin təxribatının qarşısını alarkən ağır döyüşlərdə qəhrəmancasına həlak olan baş leytenant 28 yaşlı Cavid Gülbaba oğlu Dədəkişiyevin cənazəsi doğulub boya-başa çatdığı İmişli rayonunun Qaralar kəndinə gətirilib. Aprelin 11-də şəhid zabitimizin nəşi yaylım atəşi altında canından çox sevdiyi müqəddəs Vətən torpağına tapşırılıb.



İzdihamlı vida mərasimində çıxış edənlər şəhidin ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verib, Allahdan səbr diləyiblər. Bildirilib ki, Vətən yolunda canından keçən Cavid kimi Azərbaycan oğullarının xatirəsi qədirbilən xalqımızın qəlbində əbədi yaşayacaq.

Dəfn mərasimi başa çatdıqdan sonra şəhidin tabutu üzərinə çəkilən üçrəngli Azərbaycan bayrağı əbədi xatirə olaraq ailəsinə təqdim edilib.

Bayrağı qəbul edən şəhidin atası Gülbaba Dədəkişiyev oğul itkisinin ağırlığına baxmayaraq, övladının torpaqlarımızın bütövlüyü uğrunda şəhid olmasından qürur duyduğunu bildirib.

* * *

Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində baş vermiş son hərbi əməliyyatlar zamanı şəhid olan Sərxan Oqtay oğlu Bayramov aprelin 11-də doğulub boya-başa çatdığı Zaqatala şəhərində torpağa tapşırılıb. Məzarı üstünə əklil və qərənfillər qoyulub. Şəhidin tabutu üzərinə çəkilmiş üçrəngli Azərbaycan bayrağı ailəsinə təqdim edilib.

* * *

Düşmənlə təmas xəttində, Tərtər istiqamətində gedən döyüşlərdə şəhid olan baş leytenant Elnur İsgəndər oğlu İsgəndərov aprelin 11-də doğulduğu Şəki şəhərindəki qəbiristanlıqda torpağa tapşırılıb.

Şəhidin tabutu üzərinə çəkilmiş üçrəngli Azərbaycan bayrağı ailəsinə təqdim edilib.

* * *

Qoşunların təmas xəttində erməni işğalçıları ilə döyüşdə şəhid olan daha iki hərbi qulluqçu Musayev Səbuhi Rəfail oğlu Bərdə rayonu Mustafaağalı kəndində, Laçın rayon sakini Məmmədov Ülvin Cəmaləddin oğlu isə Ağcabədi rayonunun Taxtakörpü ərazisində torpağa tapşırılıb.

**PS.** *Qeyd edək ki, bütün şəhidlərimizin dəfn mərasimləri izdihamlı keçirilib. Bu tədbirlərdə millət vəkilləri, şəhər və rayon icra hakimiyyətlərinin, Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rayon idarələrinin nümayəndələri, şəhidlərin döyüşçü yoldaşları, müharibə veteranları və sadə insanlar iştirak ediblər.*

**"Azərbaycan Ordusu"**



Tibb xidməti

# "Sağalıb döyüş növbəsinə qayıdacam"



*Aprel ayının ilk günlərindən erməni işğalçıları atəşkəs rejimini pozaraq həm yaşayış məntəqələrimizi, həm də mövqelərimizi atəşə tutaraq hücuma keçmişdilər. Düşmən hücumunun qarşısını alan cəsur döyüşçülərimiz əks-həmlə zamanı bir neçə strateji əhəmiyyətli yüksəkliyi ələ keçirmiş, iki yaşayış məntəqəsini azad etmişdilər.*

Biz cəbhə bölgəsinə çatanda da ağır döyüşlər səngiməmişdi. Azğınlaşmış düşmən məğlubiyyəti ilə barışmayaraq müqavimət göstərir, qorumağa gücü çatmadığı yüksəklikləri geri qaytarmağa çalışırdı. Mövqelərində inamla, cəsarətlə dayanmış döyüşçülərimiz isə sərrast atəşlə qəsbkarları məhv edərək bir az da geri sıxışdırırdılar.

Müharibə zamanı hərbi həkimlərin də üzərinə mühüm vəzifələr düşür. Onlar döyüşlərdə yaralanmış zabit və əsgərlərin həyatını xilas etmək üçün əllərindən gələni əsirgəmirlər. Məhz onların peşəkarlığı və bacarığı sayəsində neçə-neçə döyüşçü ölümdən dönür. Ağır döyüşlər getdiyi günlərdə yaralılara göstərilən tibbi yardımla yaxından tanış olmaq üçün hərbi səyyar hospitalına üz tutduq. Dəhlizdə böyük canlanma var idi. Həkimlər, tibb bacıları palataları gəzib yaralılara baş çəkirdilər. Hamı diqqətini yaralılara yönəldib.

Səyyar hospitalda ilk həmsöhbətim Silahlı Qüvvələrin baş terapevti tibb xidməti polkovnik-leytenantı Samil Qasımov oldu. Baş terapevt bildirdi ki, yaralılara həm cərrahi, həm də başqa tibbi yardımların göstərilməsi üçün hospitalda hər cür şərait yaradılıb. "Yaralılara cərrahiyyə yardımı göstərildikdən və artıq həyatları üçün heç bir təhlükə olmadıqdan sonra onlar ayrı-ayrı xəstəxanalara təxliyyə edilirlər. Yeri gəlmişkən onu da deyim ki, səyyar hospitala Səhiyyə Nazirliyi tərəfindən də bütün yüksək ixtisaslı həkimlər cəlb olunub. Qonşu rayonlardan həm həkimlər, həm də tibb bacıları könüllü olaraq bizə köməyə gəliblər. Hər kəsin məqsədi bütün imkan və vasitələrdən bacarıqla istifadə edərək yaralıların həyatlarını xilas etməkdir. Gərgin hərbi əməliyyatlar dövründə hospitala daxil olan yaralıların hamısının həyatı xilas edilib. Şükürlər olsun ki, bu günə qədər ölüm faktı qeydə alınmayıb. Bu onu göstərir ki, işlərimiz yüksək səviyyədə qurulub, həkimlərimiz də peşəkardırlar."

- Səyyar hospital ən müasir tibbi avadanlıqlarla təchiz edilib, - deyə Tibb Baş İdarəsinin tibbi-təchizat şöbəsinin baş zabiti mayor Anar Eyvazov bizimlə söhbətə başladı. - Həmçinin yaralıların təxliyyəsinə bütün texniki vasitələr, tibbi yardım maşınları, o cümlədən hərbi sanitar aviasiya və Səhiyyə Nazirliyinin sanitar aviasiya dəstələri cəlb olunub. Şəfa ocağına daxil olan yaralılar ləngimədən əməliyyat otağına götürülür. Həkimlərimiz yaralıların həyatını xilas etmək üçün işə başlayırlar. Ümumiyyətlə, səyyar hospitalda eyni vaxtda 4 ağır, 4 yüngül cərrahiyyə əməliyyatı aparmaq olar. Həkimlərimiz bütün bu imkan və vasitələrdən yetərincə bəhrələnərək yaralıların həyatını xilas edirlər.



Silahlı Qüvvələrin baş cərrahı tibb xidməti polkovniki Famil Babayev əməliyyatdan yenicə çıxmışdı. O dedi:

- Daha bir hərbçimizin həyatını xilas etdik. Əsgər minaya düşmüşdü, ayağına qəlpə dəymişdi. Əməliyyat aparıb qəlpələri təmizlədik. Əsgərin yaraları ağır deyil, o yaxın müddətdə hərbi hissəyə qayıdıb xidmətini davam etdirəcək. Biz gecə-gündüz döyüşçülərimizin sağlamlığı keşiyindəyik. Hospitala daxil olan yaralıların yaralanma dərəcəsini təhlil edərkən belə qənaətə gəldim ki, düşmən döyüşçülərimizə qarşı dağıdıcı silahlardan istifadə edib. Adətən müharibə zamanı ağır yaralananın dərəcəsi 10-12 faiz olmalıdır. Müşahidələr göstərdi ki, bizdə bu faiz 40-45 faizə çatıb. Bu, bir daha sübut edir ki, erməni işğalçıları döyüşlər zamanı iriçaplı və daha dağıdıcı silahlardan istifadə edirlər. Məsələn, döyüş zamanı yaralanmış bir əsgərin bədənində 40-a yaxın qəlpə var idi. Peşəkar cərrahların səyi nəticəsində qəlpələrin hamısı əsgərin bədənindən təmizləndi. Ən müasir tibbi avadanlıqlar və texniki vasitələr işimizi asanlaşdırır, hərbi əməliyyatların uğurla həyata keçirilməsini təmin edir.

Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin şöbə rəisi tibb xidməti polkovniki Azad Məmmədov da səyyar hospitalda aparılan uğurlu cərrahiyyə əməliyyatlarından söz açaraq bildirir ki, hər bir həkim və tibb işçisi yaralı döyüşçülərə canıyananlıqla tibbi xidmət göstərir. Yaralıların həyatının xilas edilməsində bütün tibb heyətinin - həkimlərdən - sürücülərə qədər hər kəsin əməyi, hər kəsin zəhməti vardır. Onlardan bəzilərinin adlarını çəkmək istərdim. Tibb xidməti polkovnikleytenantları Roman Çobanov, Çingiz Quliyev, Hüseyn Əliyev, Hümmət Əhmədov, tibb xidməti mayorları Tale Qasımov, Rəşad Əkbərli, Şahin Ağayev, tibb xidməti kapitanları Elgün Səmədov, Mirağa Tarverdiyev, Famil Quliyev, Elvin Məmmədli, Samir Süleymanov, Amil Əliyev, tibb xidməti baş leytenantları Azər Əliyev, Yaşar Abbasov, Nicat Quliyev, Göyüş Orucov, gizirlər Araz Cabbarov, Anar İsmayılov, tibb bacıları və laborantlardan Sevinc Hüseynova, Cavidə Rüstəmova, Vüsalə Məmişova, Günay Behbudova, Aytən Kərimova, Mətanət Qurbanova, Aidə Sərdarova, Aynur Məmmədova, Gühirə Mirqədimova, Mariya Paşayeva, Gülşən Əhmədova, Şəlalə Quliyeva, Əfsanə Məmmədova, Nüşabə Məmmədova, Ülviyyə Hüseynova, Heyran Məmmədova, Ayşən Axundova, Afət Qocayeva, Günay Musayeva, Mehparə Ağayeva, Zöhrə Kərimova, Sevda Mehdiyeva, Fidan Qənbərova, Sahibə İsmayılova, Günay Əliyeva, Vəfa Behbudova, Reyhan Həsənova, Roza Hacıyeva, İradə Nuriyeva, Faizə Əmirxanova, Sara Məmmədova, Afaq Əliyeva, Gülnarə Kərimova, Eyzəngül Fərəcova, Aynur Məmmədova və başqaları üzərlərinə düşən vəzifələrin öhdəsindən bacarıqla gəlirlər.

Bir azdan Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyev və Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev səyyar hospitaldakı yaralılara baş çəkməyə gəlirlər. Generallar bir-bir palatalara gəzir, yaralılarla görüşür, sağlamlıqları ilə yaxından maraqlanırlar. Həkimlər aparılan əməliyyatlar barədə onlara məlumat verirlər. General-mayor Natiq Əliyev bizimlə qısa söhbətində bildirir ki, səyyar hospitalda əməliyyatlar çox səmərəli və dəqiq aparılır. "Məqsədimiz döyüşlər zamanı yaralanmış hərbçilərin həyatını xilas etməkdir. Gördüyünüz kimi, məqsədimizə nail oluruq. Burada yaralılara ən yüksək səviyyədə tibbi xidmət göstərilir. Həkimlərimiz ən mürəkkəb əməliyyatların öhdəsindən bacarıqla gəlirlər. Sutkanın istənilən vaxtı səyyar hospitalın tibb heyəti yaralıları qəbul etməyə hazırdır."

Hospitalda müalicə olunan yaralıların bir neçəsi ilə görüşüb söhbət etdik. Əsgər Rahib Abdullayev dedi ki, həkimlərdən, tibb bacılarından çox razıdır. "Döyüş zamanı ayağımdan yaralanmışdım. İlkin tibbi yardım göstərildikdən sonra məni hospitala çatdırdılar. Əməliyyat uğurla keçdi. Həkimlər çox əziyyət çəkdilər. Həyatımı xilas etdiklərinə görə onlara dərin minnətdarlığımı bildirirəm. Artıq ağrılarım keçib, özümü yaxşı hiss edirəm. Bir müddətdən sonra hərbi hissəyə dönüb ermənilərlə yarımçıq qalmış döyüşü davam etdirəcəm."

- Əks-həmlə ilə düşməni yavaş-yavaş geri oturdurduq, - deyə yaralı zabit Asif Rəsulov sözə başladı. - Ermənilər nə qədər müqavimət göstərməyə çalışsalar da, məqsədlərinə çata bilmədilər. Qəflətən düşmən gülləsinə tuş gəldim. Hospitala çatan kimi həkimlər məni əməliyyat etdilər. Şükür, indi yaxşıyam, narahatlığım arxada qalıb. Həyatım üçün həkimlərə minnətdaram, burada çalışan hər kəsə "çox sağ olun", - deyirəm.

Hərbi səyyar hospitaldan xoş təəssüratlarla ayrılıram. Bir daha əmin oluram ki, həkimlərimiz döyüşçülərimizin sağlamlığı keşiyində sərvaxt dayanıblar.

Yol boyu yaralılardan birinin "Sağalıb tezliklə döyüş növbəsinə qayıdacam" sözlərini xatırlayıram.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

*"N" hərbi hissəsində əsgəri xidmətini başa vuran hərbi qulluqçuların təntənəli surətdə yolasalınma mərasimində iştirak edən zaman yaranan fürsətdən istifadə edərək ordumuzda hərbi xidmətlərini başa vuran gənclərlə söhbətləşdik. Vətən qarşısında müqəddəs övladlıq borclarını layiqincə verən gənclər üçün ordu həyatının nə ifadə etməsini, hərbi xidmət dövründə qazandıqları vərdişləri öyrənmək, ürək sözlərini dinləmək bir hərbi müxbir olaraq mənim üçün çox maraqlı idi. Əsgərlərə bir sual ünvanladım: "Ordu həyatı sizə nə verdi?" Hər kəs bu sualı müxtəlif aspektlərdən cavablandırmağa çalışdı.*

# Əsgər ordu həyatından hansı təəssüratlarla ayrılır?



### Əsgər qardaşlığı ailə dostluğuna çevrilib

Əsgərlikdə dost olanlara el arasında adətən "çətin günün dostu" deyirlər. Çünki onlar çətin şəraitdə qazandıqları mehribanlığı illər keçsə belə unutmurlar.

Şahin Osmanov Zaqatala rayonunun Danaçı kəndindən, Kəmaləddin Bağırov isə Masallı rayonunun Ərkivan qəsəbəsindəndir. Sülhməramlı qüvvələr taborunun ikinci bölüyündə Şahin snayperçi, Kəmaləddin isə pulemyotçu kimi xidmətlərini başa vurublar. Onlar mənimlə söhbətlərində özlərini sadəcə dost deyil, qardaş adlandırdılar.

Rüfət İmanzadə səhra idarəetmə məntəqələri taborunda mexanik telefonçu kimi xidmət edib. Doğma rayonu İmişliyə başucalığı ilə qayıdır. Ordunu əsl kişilik məktəbi adlandıran müsahibim burada bir sıra insani keyfiyyətlərə, dözümlülük, mərdlik, sözübütövlülük kimi xüsusiyyətlərə alışdığını qeyd edir. O, Quba rayonundan Araz Hacıbalayevlə, Oğuz rayonundan Rəcəb Quliyevlə və Ucar rayonundan olan Əli Hüseynovla yaranan qardaşlıqlarını ailə dostluğuna çevirərək, bir ömür boyu davam etdirmək niyyətində olduğunu dilə gətirir.

Danışdıqları xatirələrdə müşahidə etdiyim maraqlı məqam, yeni bir-birilərinə mehribanlıqları, sanki bir ananın övladları kimi birinin digərinə arxa-dayaq olması, sözün əsl mənasında, əsgər dostluğudur. Həyatlarının ən qaynar, yaddaqalan zamanında ordu həyatı onların əsgər qardaşlığını ailə dostluğuna çevirib. İnanıram ki, belə bir dostluq illərin sınağında daha da möhkəmlənəcək, əbədi olacaq.

### "Qardaşımın keçirdiyi hissləri daha yaxşı anladım"

Kiçik çavuş Bəyoğlan Balakişiyev Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Cəbrayıl rayon şöbəsindən xidmətə çağırılıb. Ailələri Biləsuvar rayonunda məskunlaşan Bəyoğlan reallıqda görmədiyi doğma yerləri haqqında yalnız ata-anasının, qohumlarının dilindən eşidib, yuxularında doğma torpaqlarına "ayaq basıb". Doğma yurd-yuvalarına dönəcəkləri günün həsrəti ilə yaşayan gənc Vətənə övlad borcunu layiqincə verərək valideynlərinin yanına qardaşı Xanoğlan kimi təşəkkür məktubu ilə yollanır.

Rüstəm Rüstəmzadə isə mühafizə taborunun fəxri qarovul bölüyünün atıcı əsgəri olub. Dövlət səviyyəli tədbirlərdə, xarici qonaqların qarşılanmasında, şəhidlərin dəfn mərasimlərində iştirak etmələrindən danışaraq bildirdi ki, orduda əldə etdikləri onun gələcək, müstəqil həyatında nailiyyətlər qazanmasına kömək olacaq.

Həmsöhbətlərimin ikisi də illər öncə ön xətdə xidmət edən qardaşlarının hərbi andında iştirak etmələrindən xoş bir xatirə kimi söz açdılar. Onlar hərbi and mərasimində qardaşları ilə görüşlərindən gülərək danışırlar. Hər iki gənc ordu həyatının onların formalaşmasında, nizam-intizamlı olmasında və ən əsası Vətəni qorumaq peşəsinə yiyələnmələrində böyük rol oynadığını deyərək qardaşlarının bir vaxt keçirdiyi hissləri indi daha yaxşı anladıqlarını etiraf etdilər.

### "Kiçik qardaşlarıma nümunə olacağıma söz vermişəm"

Şəmkir rayonunda dünyaya göz açan avtomobil təmiri taborunun baş çilingəri Arzum Nağdəliyev hərbi xidmətini baş əsgər kimi başa vurur. Vətənə olan sevgisi gözlərinin nurunda əks olunan əsgər şəhid zabitimiz Cahangir Rüstəmovun adını daşıyan orta məktəbi bitirib. Müsahibim son zəng günü uşaqlıq dostu Əkbərlə şəhidin məktəbin qarşısında ucalan büstünə üz tutaraq gələcək həyatlarında onun kimi Vətənə layiqli övlad, Ali Baş Komandanın əmri ilə torpaqlarımızın düşməndən azad olunması uğrunda mübarizəyə hazır olacaqlarına və şəhidlərimizin qisasını alacaqlarına söz verdiklərini xatırladır. Dostunun da ön xətdə nümunəvi xidmət etdiyini və məzuniyyəti dövründə onun görüşünə gəldiyini bildirdi. Çilingər peşəsinin sirlərini dərindən öyrənən gənc gələcək, müstəqil həyatında da bacarıqlı peşə sahibi olacağına əmindir. Xidmət dövrünün ən yadda qalan hadisələrindən olan hərbi and icdikləri gün valideynlərinə xidmətində və bütün əməllərində kiçik qardaşlarına nümunə olacağına söz vermiş Arzum vədinə sadiq çıxıb.

### Sülhməramlı əsgərin gözləri nədən yaşarmışdı?

Yəhya Oruclu Tərtər rayonunun Seyidimli kəndində anadan olub. Düşmənlə təmas xəttində boya-başa çatması uşaq yaşlarından sanki Vətən sevgisini daha dərindən dərk etməsinə səbəb olub. Əsgər getmək, Vətənə müqəddəs borcunu layiqincə vermək məqsədi onu ilk öncə ordu sıralarına gətirib.

Yəhya sülhməramlı qüvvələr taborunda xidmət edib. 10 ay Əfqanıstanda, Kabul aeroportunda sülhməramlı qüvvələr tərkibində Vətənimizi layiqincə təmsil edərkən burada əfqan və ingilis dillərini orta səviyyədə öyrənib. Vacib hərbi obyektlərin mühafizəsində üzərinə düşən borcu şərəflə yerinə yetirib. Yəhya deyir ki, Həmid Karzai Aeroportunun qarşısında 52 dövlətin bayrağı dalğalanır. "Böyük dövlətlərin bayraqları sırasında üçrəngli, əzəmətli bayrağımızı ilk dəfə görəndə ürəyim sanki köksümə sığmadı, sevincdən gözlərim yaşardı. Qeyri-ixtiyari olaraq ümummilli liderimiz Heydər Əliyevə məxsus "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam" kəlamını xatırladım. Bəli, sözün həqiqi mənasında, həmin anda mən azərbaycanlı olmağımla fəxr etdim".

Əsgər Oruclu Əfqanıstanda sülhün və əmin-amanlığın qorunmasında fəal iştirakına görə Birləşmiş Sülhməramlı Qüvvələrin Komandanlığı tərəfindən fəxri fərmanlarla təltif edilib. Azərbaycanın adını yüksəklərə qaldırıb.

### "Komandirimi unudan deyiləm"

Əhməd Sofiyev Zaqatala rayonundandır. Sülhməramlı qüvvələr taborunun qərargah bölüyünün nümunəvi əsgəri kimi xidmətini başa vuraraq doğma kəndinə fəxri fərmanla dönür. Əhmədin xidməti və əlində fəxrlə tutduğu fəxri fərman özündən kiçik iki qardaşına da nümunədir. Əsgər söhbətimizdə komandiri kapitan Famil Əliyev haqqında, onun əsgərlərə münasibətindən, hərbi qayda-qanunları, silahla davranmağı səbrlə, heç usanmadan başa saldığından danışdı. Əsgərin komandirinə olan sevgisi məni çox duyğulandırdı .

Sərvər Mehdiyev isə müddətli həqiqi hərbi xidmətini avtomobil taborunun təmir taqımında başa vuraraq evlərinə, doğmalarının yanına başıuca qayıdır. Sabirabad rayonunun Bulduq kəndindən olan bu əsgərin qardaşı "N" hərbi hissəsində gizir kimi xidmət edir. Sərvər hərbi xidmətinin ilk günlərini xatırladı. Taqım komandiri leytenant Qurban Mustafayevin onlara sıra hazırlığı keçməsindən danışdı. Leytenantın öyrətdiklərini və onlara olan doğma münasibəti ömrü boyu unutmayacağını söylədi.

Bəhruz Əliyev isə Goranboy rayonunun Nərimanlı kəndindəndir. Sülhməramlı qüvvələr taborunun maddi-texniki təminat bölüyündə xidmət edib. Bəhruzun uşaqlıqdan ən birinci arzusu bibisinin şəhid yoldaşı Xanlar Şəkərov, təhsil aldığı məktəbin adını daşıdığı şəhid Hilal Abdullayev kimi xalqına, millətinə layiqli övlad olmaq idi. O, Bakı Sənaye Pedaqoji Kollecindəki təhsilini əsgərlikdən sonra davam etdirəcək. Bu gün isə evlərinə, valideynlərinin yanına döyüş hazırlığında və hərbi intizamda əldə etdiyi nailiyyətləri ilə dönür. Əsgər yoldaşlarını və bölüyün baş çavuşu gizir Ceyhun Rzayevi heç zaman unutmayacağını söyləyir müsahibim. "Komandirim" deyərkən səsindəki sevgisi aydın hiss olunur.

Əsgər! Bu kəlməni, sözün əsl mənasında, dərk edənlər öz xidməti vəzifələrini layiqincə yerinə yetirən və hamımızın qürur mənbəyimiz olan əsgərlərimizdir. Onlar Vətən qarşısında müqəddəs andı içərkən bu adın ucalığını dərindən duyublar. Vətən adlı müqəddəs torpağın xidmətində dayanmaq hər bir kəsin ən müqəddəs amalıdır. Bu ali vəzifə bütün mənəvi dəyərlərimizdən üstündür. Çünki Vətən hamımızındır və bu torpağın vətəndaşı olaraq əcdadlarımızdan miras qalan əmanəti göz bəbəyi kimi qoruyub gələcək nəsillərə ötürməliyik.

Həmin gün ordudan tərxis olunmuş əsgərlərin söhbətləri, xatirələri məndə xoş təəssüratlar oyatdı. Hərbi hissədən ayrılarkən yenə də bir həqiqətə inandım ki, Vətənimizə övlad borcundan şərəflə çıxan bu gənclər mütləq cəmiyyətimizin fəal vətəndaşları sırasında yer tutacaqlar.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### "Türk Hava Yolları"na məxsus təyyarəni ildırım vurub



"Türk Hava Yolları"na məxsus təyyarəni ildırım vurub.

Ankara-İstanbul aviareysi ilə uçan "Boeing B737-800" təyyarəsi ildırımın vurması səbəbindən İstanbula təcili eniş üçün icazə istəyib.

Təyyarədə olan 132 sərnişindən heç biri xəsarət almayıb və təyyarə problemsiz eniş edib.

### Dubay özünün dünyada ən hündür bina rekordunu təzələmək istəyir



Dubayda dünyanın ən hündür göydələni olacaq daha bir bina tikmək qərarına gəliblər. Hazırda bu adı Dubayın 828 metr hündürlüyü olan "Bürc Xəlifə" göydələni daşıyır.

Yeni layihə üzərində 2010-cu ildə dünyanın ən hündür göydələnini inşa edən "Emaar" kompaniyası işləyəcək.

Kompaniyadan verilən məlumata əsasən, "Tower" adlandırılan yeni göydələn "Bürc Xəlifə"dən azacıq hündür olacaq. Binanın yuxarısında müşahidə meydançası, mağazalar, restoranlar və ola bilsin, kiçik otel tikilməsi nəzərdə tutulur.

### Yaponiyada "gözəgörünməz" qatarlar hazırlanır



Yüksək texnologiyalar üzrə ixtisaslaşmış Yaponiya saatda 300 kilometrdən də çox sürətlə hərəkət edən qatarlarla kifayətlənmir. Bu dəfə Asiya ölkəsində "gözəgörünməz" qatarlar hazırlanır.

Bu qatarın bütün vaqonlarını yarım əksetdirici örtüklə bağlamaq planlaşdırılır. Nəticədə onlar praktiki olaraq ətraf mənzərədən seçilməyəcək.

Layihə "Seibu Group" kompaniyasının sifarişi ilə memar Kazuyo Sejima tərəfindən hazırlanır. Məşhur "Red Arrow" şəhərətrafı qatarının yeni versiyası kompaniyanın yubileyində ictimaiyyətə təqdim olunacaq. 2018-ci ildən başlayaraq isə bu qatarlar sərnişinlərin istifadəsinə veriləcək.

### Tacikistanın ilk neft emalı zavodu istifadəyə verilib



Tacikistanın ilk neft emalı zavodu olan "Naftrason" istifadəyə verilib.

İllik 70 min ton xam neft tutumuna malik zavodda neft, dizel yanacağı, mayeləşdirilmiş təbii qaz və maye yanacaq istehsal ediləcək. Zavodun xammal ehtiyacının böyük hissəsi Qazaxıstandan təmin olunacaq.

### İsrailin Elektrik Şirkəti daxili bazardakı təbii qazdan daha ucuz LNG idxal edəcək



İsrailin Elektrik Şirkəti (IEC) ölkənin daxili bazarındakı təbii qazdan daha ucuz mayeləşdirilmiş təbii qaz (liquefied natural gas-LNG) idxal edəcək.

IEC təbii qazdan elektrik enerjisi istehsal etmək üçün enerji nəhəngi BP-dən 3 tanker mayeləşdirilmiş təbii qazı ölkənin daxili bazarındakı qaz qiymətindən daha ucuza alacaq. Şirkət LNG-ni daşınma və mayeləşdirmə xərcləri də daxil olmaqla bir milyon BTU (ingilis istilik vahidi) üçün 4.9 dollar ödəyəcək.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

# Sülhməramlılarımızın bir qrupu Əfqanıstana yola salınıb



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, NATO-nun 2015-ci ilin yanvar ayından Əfqanıstan İslam Respublikasında həyata keçirdiyi yeni "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasının tərkibində fəaliyyət göstərmək üçün Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 38 əsgər, 2 hərbi həkim və 2 mühəndis-istehkam ixtisası üzrə zabit olmaqla 42 nəfərdən ibarət qrupu plana uyğun olaraq rotasiya qaydasında Əfqanıstana yola salınıb.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Əfqanıstandakı sülhməramlı missiyası 20 noyabr 2002-ci il tarixdən başlayıb.

Hazırda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 nəfərdən ibarət hərbi qulluqçusu, 2 hərbi həkimi və 2 mühəndis-istehkam ixtisası üzrə zabiti Əfqanıstandakı missiyada iştirak edir.

# Kursantların asudə vaxtları səmərəli keçir

Bu günlərdə Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil Nazirliklərinin, Muxtar Respublika Ali Məclisinin sədri yanında Gənclər Fondunun birgə təşkilatçılığı ilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinə gəzintisi təşkil olunub. Muzeyin bələdçisi Şahnaz Əliyeva buradakı eksponatlar haqqında gənclərə geniş məlumat verərək bildirib ki, muzeydə 500-ə yaxın eksponat qorunub saxlanılır.



Kursantlar həmçinin Nuh peyğəmbərin məzarüstü abidəsini də ziyarət ediblər.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri Nicat Babayev bildirib ki, gəzintinin təşkil olunmasında məqsəd gəncləri Vətənimizin tarixi keçmişi haqqında məlumatlarla tanış etmək, onlara Vətənə məhəbbət hissini aşılamaqdır.

Növbəti gün isə kursantlarımız velosiped yarışında güclərini sınayıblar.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, Hava və Ekstremal İdman Növləri Federasiyasının birgə təşkilatçılığı ilə muxtar respublikanın stadionunda velosiped yarışı üzrə birincilik keçirilib.

50 kursantın iştirak etdiyi yarışda 1-ci yerə Rəşad İsmayılov, 2-ci yerə Sevindik Əsgərov, 3-cü yerə isə Pərviz Məmmədzadə layiq görülüb. Qalib gələn kursantlara təşkilatçıların diplom və hədiyyələri təqdim edilib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri Taleh İbrahimov, Hava və Ekstremal İdman Növləri Federasiyasının sədr müavini Azər Məmmədov bildiriblər ki, bu kimi tədbirlərin gənclərdə sağlam həyat tərzinin formalaşmasında, kursantların asudə vaxtlarının səmərəli təşkilində mühüm rolu vardır.

**Nəriman NƏCƏFOV,**
**"Azərbaycan Ordusu"**



# Yarımçıq məzuniyyət

(Sənədli hekayə)

*2016-cı ilin aprel döyüşlərində şəhid olan əsgərlərimizin ruhuna*

Ürəyindən keçənləri kimsəyə bildirmirdi. Düşüncələrində istəklə tərəddüd çarpışmaqdaydı; istəyini bildirməyə tərəddüd edirdi, tərəddüdünü yumşaltmağa, yumşalda-yumşalda əritməyə çətinlik çəkirdi. Nə onu bacarırdı, nə o birini. Nə ondan uzaqlaşa bilirdi, nə o birindən. Döyüş növbəsinə getmə ərəfəsində özünü birtəhər ələ alırdı ki, kimsə qayğılı olduğunu hiss eləməsin. Bilən olsa, xidmətə buraxmazdılar, əvəzinə başqasını göndərərdilər. Bunu istəmirdi.

Dörd gündən sonra qardaşının toyu olacaqdı. Gəlinin babası ağır xəstə olduğundan qudalar razılığa gəlmişdilər ki, toyu tezləşdirsinlər. Şeymur səbirsizlik eləmişdi: "Samirsiz nə toy?" Atası onun sözünü kəsmiş, "Samir əsgərdi. Komandirinə deyər, imkan olsa, gələr, olmasa gəlməz..." - demişdi. Samirə də zəng eləyib dönədönə tapşırmışdı ki, imkan olmasa gəlmə...

Bacısından ötrü "burnunun ucu göynəyirdi". Qoşa qollarını anasının kürəyində çarpazlamaq istəyirdi, nənəsinin köksünə sığınmağı arzulayırdı. Qardaşının əllərinin saçlarında gəzişməsini "dədə boyu" bilmək keçirdi könlündən. Fürsət tapıb Təranəylə də görüşəcəkdi. Deyə bilmədiklərini deyəcəkdi...

Onu xəyaldan gün növbətçisinin səsi ayırdı:

- Samir, komandir səni çağırır!

...Komandirin kabinetindəydi. Elə bil havası çatmırdı. Niyə çağırıldığını dəqiq bilməsə də, gümanlayır, çavuş Tuncay Cəfərlini qınayırdı: "Onun işidi. Komandirə nəsə deyib. Yoxsa komandir fikirli olduğumu hardan bilərdi...".

- Həsənov, səni qayğılandıran nədi, nəyin fikrini çəkirsən? - komandir təmkinlə dilləndi.

Komandirin sərt baxışlarından sıxılırdı. Desinmi - necə desin, deməsinmi - necə deməsin? Digərləri kimi o da komandirin sayğısını öz üzərində həmişə hiss eləyirdi. Ondan ata, qardaş qayğısı görürdülər. Hamısı komandiri çox istəyirdi.

- Komandir, - dedi. - Dörd gündən sonra qardaşımın toyudu...

Kəlmələr közə dönüb dodaqlarını yandırdı. Daha heç nə demədi, deyə bilmədi. Alnına soyuq tər gəldi. Ürəyi uçundu. Neçə gündən bəri ürəyinə yük olanları demişdi. İndi nə eşidəcəyinin intizarındaydı...

Ermənilər atəşkəsi tez-tez pozurdu. Səngərdaşını, səngər qardaşını dar ayaqda qoyub getməyi şəninə sığışdırmırdı. Həm də qardaş toyunda doyunca, yorulunca oynamaq keçirdi könlündən. Neçə illərin o üzündə qalan yeniyetməliyində olduğu kimi. "Güləşəngi" çalınanda sümükləri titrəyirdi. Yaxşı güləşirdi. Qardaşının da toyunda güləşmək istəyirdi. Bu dəfə əsgər kimi...

- Get, Həsənov, - komandir ağır-ağır dillənib alnını ovuşdurdu. - Səni yenə çağıracam...

Kabinetdən çıxdı.

Hər yandan yazın qoxusu gəlirdi. Ağacların tumurcuqları yarpaqlayırdı. Bir qədər aralıda gövdəsi yaralanmış ağac da vardı. Hərbi hissə əsaslı təmir ediləndə o ağacı mühariбədən bir nişanə kimi saxlamışdılar. Seymur budağı gövdəsindən aralanmış bu ağacın yanında həmişə ayaq saxlayırdı. Bu boyda bir ağac da evlərinin həyətindəydi. Bu ağacı görəndə həyətlərindəki o ağac düşürdü yadına...

Komandirin son kəlmələrini xatırladı. "Səni yenə çağıracam...". Bu kəlmələrdən süzilən işıq istəyinin ağ yoluna dönmüşdü. Bu yolun sonunda kəndləri vardı, kəndlərində evləri vardı, evlərinin həyətində toy mağarı vardı. Kənddə sevdası vardı...

İki saatdan sonra döyüş növbəsinə gedəcəkdi...

Samir on günlük məzuniyyətə buraxılmışdı.

Sabah toy olacaqdı.

Təranəni görmək, ürəyini açmaq istəyirdi. Bu iki gündə gəlib-gedənlərə görə evdən çıxmağa imkanı olmamışdı. "Sabah mütləq görəcəm..." - düşünmüşdü...

Razılığını alsaydı, elçi göndərəcəkdi. Dilsiz sevdasının dili sabah açılacaqdı...

Otağın pəncərəsi açığıydı. Səhər yeli otaqda şahlıq eləyirdi. Vaxt öldürmək üçün televizoru açdı. Aparıcının verdiyi məlumatları eşidincə qanı damarında dondu elə bil: düşmənlər onun xidmət elədiyi ərazidə də atəşkəsi pozmuşdular. Ağır döyüşlər gedirdi.

Anasına heç nə demədən tələsik həyətə çıxdı. Atası həyətdəydi. Tələsik ona yaxınlaşdı.

- Ata, - dedi. - Ermənilər atəşkəsi yenə pozub. Ağır döyüşlər gedir...

Atası əl saxladı, beli tullayıb bir az maraqla, bir az narahatlıqla oğlunu süzdü, bilmədi nə desin.

- Mən qayıtmalıyam, ata. Orda vəziyyət ciddidi. Mənə xeyir-dua ver...

Samir də döyüşürdü...

Hansı hissin təsirindənsə, sağ cinaha baxdı. İki-üç erməni dəydi gözlərinə. Atışın səmtini ora yönəltdi. Biri öldü. Digər ikisi qeyb oldu elə bil...

Atışı davam etdirirdi...

Qəflətən diz çökdü - sinəsinə qəlpə dəymişdi...

Gözucu sağına-soluna boylandı...

Göy üzündə gördüyü qara buludlar ağır-ağır üstünə enirdi...

Özünü toplayıb ayağa qalxmaq istədi, qalxa bilmədi...

Əsgər Samir Həsənov şəhid olmuşdu...

Samirin məzuniyyət vərəqi köz olub komandirin əllərini yandırırdı: məzuniyyətin qurtarmasına hələ üç gün vardı...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**12 aprel 2016-cı il.**

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 və 82 millimetrlik minaatanlardan, həmçinin iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 100 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar, Berkaber kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Qızılhacılı kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari, Mosesqex və Ayqepar kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq, Əlibəyli kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Çiləbürt, Yarımca, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Cəvahirli, Sarıcalı, Kəngərli, Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitinə uyğun olaraq, düşmənin mövqelərinə və səngərlərinə 101 dəfə atəş zərbəsi endirib.

Məsul katib
polkovnik-leytenant
İlham BEHBUDOV

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
leytenant
Günay TAĞIYEVA

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 182
Nüsxə 4700